# Müqəddəslər haqqında danışanda paklaşıram

## Nəriman Həsənzadə: “Bir milləti öldürmək üçün onun adət-ənənəsini al əlindən”



**Xalq şairi Nəriman Həsənzadənin yeni kitabı - "Seyid Nigari Türbəsi" işıq üzü görüb. Hələ ilk variantı qəzetdə dərc olunduğu gündən sevgiylə qarşılanıb, oxucu marağına səbəb oldu. Xalq şairi ilə söhbətimiz "Seyid Nigari Türbəsi"barədə oldu.**

**- Xoş gördük, ustad! Nə var, nə yox, necəsiz?**

- Çox sağ ol, Güllü xanım.

**- Nəriman müəllim, necə oldu ki, Mir Həmzə Əfəndiyə - Seyid Nigari həzrətlərinə məhz ömrünüzün Nigariylə təxminən həmyaş zamanında müraciət etdiniz? Bunu nə ilə bağlayırsınız?**

- Doğrusu mənim Seyid Nigaridən xəbərim yoxuydu. Amasiyada Seyid Nigarinin uyuduğu türbə bərpa olunur. Mən də nümayəndə heyəti ilə ora getdim. Gördüm orda böyük təmir işləri görülür. Ordakı təmir işlərinin bütün xərclərini də Nərminə xanım İsgəndarzadə öz üzərinə götürmüşdü. Onun ulu babası Mir Həmzə əfəndinin ən sədaqətli dostlarından olub. Orda bir şeirlə çıxış elədim. Və mən orda çox şey öyrəndim. Başqa seyid ailələri gördüm. Və mən o poemanı yazdım. "Seyid Nigari türbəsi" adlı kitabım işıq üzü gördü.

**- Nəriman müəllim, "Seyid Nigari Türbəsi" əsərinizin belə az vaxt içərisində bu qədər sevilməsinə necə baxırsınız?**

- Görünür mən də o haqda iki kəlmə üreyimdən gələni yazanda yerinə düşdü. Görünür camaat gözləyirmiş ki, kimsə yazsın. Hələ çox yazılacaq. Bu bir başlanğıcdı. Amma bu iş böyük hadisədi. Taleyimə minnətdaram ki, bu mənim yaradıcılığımda ilk dəfə toxunduğum mövzudu. Orda da qeyd eləmişəm:

*Türkiyədən əsən mehdi,*
*Haqq yolunda haqsız gedən*
*seyidlərim.*
*şəhidlərim!*
*Sizsiz qalan bu dünyaya*
*Heç bilmirəm nəyim deyim?!*

**- İlk öncə Allaha, Peyğəmbər əfəndimizə və seyidlərə bu qədər bağlılıq sizə hardan gəlir?**

- Mən anamla yaşayırdım. Həyatda heç kəsim yoxuydu. Kür qırağında, Poylu vağzalında, Gürcüstanla həmsərhəd olan yerdə iki yetim yaşayırdıq, kimsəsiz. Anam çörək bişirirdi, mən də satırdım. Atamı bir yaşımda itirmişdim. Allah bizə kömək dururdu. Məndə Allaha bağlılıq körpəlikdən başlayıb. Allah məni yaxşı adamlarla rastlaşdırdı. Din iman sahibləri, seyid ocaqları məni qorudu.

Yaxşı adamlar olmasa cəmiyyət dağıla bilər, itə bilər. Əgər tək bir yaxşı adam varsa, o da cəmiyyətdə böyük qüvvədi. Ancaq mənə nə qədər yaxşı adam arxa oldu. Mən altıncı sinifdə oxuyanda anam yuxuda Çoban Əfqanı görüb. Damcılı bulağından su gətirib ki, bunu oğluna ver içsin, oğlun şairdi, mənə şeir yazsın. Anam qorxub və deyib, yox, oğlum şair deyil. Anam yuxusunu qonşulara danışıb, onlar da gülüşüblər. Qazaxda şair adı gələndə hər kəs bilir ki, Səməd Vurğun qazanıb bu nüfuzu. Anamın yuxusundan bir ay sonra bir şeir yazdım. Bu Vidadinin "Ağlaram" şeirinə nəziraydi. Bir gün işlədiyim Aviasiya Akademiyasındakı bir müəllim yoldaş dedi ki, Nəriman, iki dəfə yuxuda Cərciz peyğəmbəri görmüşəm. Peyğəmbər yuxuda mənə dedi ki, Nəriman məni niyə ziyarət eləmir? Səni adınla çağırır, utanıram deməyə. Və mən oğlumla kürəkənimi götürüb getdim Beyləqana ziyarətə. Orda mən niyyət tutdum. Allah niyyətimi qəbul elədi. Məni pirlər, Peyğəmbərlər qoruyur. Əlbəttə hər şey Allahdan gəlir. Və mən həm də yuxulara çox inanıram. Məni yuxularımda gördüyüm haqqa bağlı hər şey duyğulandırır.

**- Nəriman müəllim, "Seyid Nigari Türbəsi" poemanızın beşinci bölümünü Cındır Osmana, onun sədaqətinə həsr eləmisiniz. O cür adamların olması bir halal insanlıq nümunəsi kimi nələr deyir indiki nəslə?**

- Çox sağ ol, qızım! Cındır Osman indiki nəslə çox şey deyir. Onun elədikləri indiki nəslə mənim poemamdan daha çox söz deyir. Cındır Osman bu bölgədən yığılan qızılları cındır paltarda Amasyaya daşıyardı. O sərhəddən keçmək üçün adamı yüz dəfə yoxlayırlar. Bu da deyirmiş məni də yoxlayın. Əynini görüb deyirlərmiş sən keç, vaxtımızı alma. Onun apardığı qızıllar o məscidin tikintisinə gedirdi. O abidənin müəllifi deyərdim Cındır Osmandı. Ona heykəl qoyulasıdı, abidə qoyulasıdı. İmkanım olsaydı o abidəni, o heykəli mən qoyardım. Belə adamlar bəzən arxada qalır. Cındır Osmanın nəvəsi şair Osman Bakı Dövlət Universitetində ehtiyac içində oxuduğu halda, onun atası dəmirçi Əhməd o qızıldan ona bir dənə də verməmişdi. Halbuki atası Cındır Osmandan qalan əmanət qızılları onun vəsiyyətinə görə o illərdə öz əlləriylə kimlərəsə paylamışdı. Seyid Nigari türbəsinin dəyərini vaxtında görən və bilən ən müqəddəs dərvişlərdən biridi Cındır Osman. Onun dostu, yol yoldaşı Nigarinin şeirləriydi. Yerindəcə ayaqları tərcümeyi-hal yazırdı: ondan yazmamaq olardımı?

*Ayaqları qələm idi,*
*yollar varaq,*
*tərcümeyi-hal yazırdı*
*axşam-sabah.*
*Bilirdi ki, yoldan ötən*
*oxuyacaq.*
*Sabah millət, sabah Vətən*
*oxuyacaq.*
*"Altı" üstə çevriləcək,*
*"Qızıl" Osman deyiləcək.*
*Onun adı olan yerdə*
*Azərbaycan*
*deyiləcək.*

*Keçdin rusun,*
*Osmanlının gömrüyünü.*
*Sən bağladın Cındır Osman,*
*zaman açdı*
*bu düyünü.*
*Qazaxda Mahmud Əfəndi*
*eşitdi, güldü, bəyəndi,*
*səndən ötrü qəhərləndi.*
*"Cındır" sözü hallandıqca*
*dəyərləndi.*

*Kim ki, sənə "cındır" deyir,*
*batır mənə nizə kimi.*
*İpək üstə toxudardım*
*"cındırını" bəzək kimi.*

**- Həzrəti Pirimizin istər İncə dərəsində, istərsə də Borçalı ellərində bu gün də çox ardıcılları var. Basqılara rəğmən onlar öz Seyid Nigari, Hacı Mahmud əfəndi kimi mürşidlərə sədaqətini bu gün də yaşadır. Nə zaman, nə mühit onları əyə, nə də döndərə bilmir. Onlara necə baxırsınız?**

- Mən buna müsəlmanlığın möhkəmliyi kimi, paklığı, saflığı kimi baxıram. Onlar qaldıqca milləti saxlayan adamlar kimi baxıram. Bir milləti öldürmək üçün onun adət ənənəsini al əlindən. Adətənənimizi onlar yaşadır. Mən inanıram ki, Həzrəti pirimizin, Hacımahmud Əfəndini davamçıları bütün zamanlarda olacaq və onlar inam və əqidəmizi yaşadacaqlar.

**- İncə dərəsinə, Borçalıya - Qaraçöpə gedib o müqəddəs məkanlarda həzrəti Pirin - yəni Seyid Nigarinin şeirlərini canlı-canlı xalqın dilindən eşitmək istərdinizmi?**

- Elə istəyirəm... Mütləq gedib ziyarət eləyəcəm. Poemanın epiloqunda deyildiyi kimi:

*...Gedim Mahmud Əfəndini*
*Ziyarət eyləyim deyim.*

**- Nəriman müəllim, ömrünüzün bu müdrik çağında güc sizə Tanrıdandı. Nə zamansa qocalığınızı boynunuza alacaqsınızmı?**

- Qətiyyən yox, qocalığı boynuma almayacağam. Mən elə bilirəm ki, hələ yazacağım ən gözəl əsərlər sırasını gözləyir. O qədər gözəl mövzularımız var ki. Poemada yazdığım kimi:

*Tarix, səni varaqlaram,*
*Nə var yadımda saxlaram.*
*Qələm ağlar, mən ağlaram,*
*Sinəmdə mövzular qalasa.*

Belə gözəl mövzulardan gəncliyə də pay düşməlidi. Gözəl gənclik gəlir. O tərbiyəni alan gənclər yazmalıdı. Müqəddəslər haqqına danışanda özüm də paklaşır, saflaşıram. Mən onların bəzilərini çox gec tanımışam. Çox təəssüf. Başqa mühitdə böyüdük. Heç Nigaridən xəbərim yoxuydu. Sən demə bizim Seyid Nigarimiz varıymış...

**- Arxanızca, cığırınızla, izinizlə gələnlərə sözünüz?**

- Bizim tarixi ənənəmiz çox zəngindi. Gənclik onlara daha çox sahib çıxmalıdı, çıxacaq da. Kökəsoya qayıdış dünyanın (mənəvi dünyamızın) daha dərindən dərkidi məncə.

Bizim Təhsil Nazirliyimizə minnətdarlığımı bildirirəm ki, onlar proqrama salıblar bütün orta məktəblərdə. Seyid Nigari tədris olunsun. Bu da gəncliyə yeni bir qapı açmaqdı. Xudu Məmmədova Allah rəhmət eləsin. Kristallarla bağlı elmi kəşfdə Moskvanı da, Londonu da üstələdi.. O dedi ki, kristalların kəsiyi var yerin doqquzuncu qatında. Bizim xalılarda, xurcun və kilimlərdə olan naxışlardı. Onun notu-zadı yoxdu. Nənələrimiz necə toxuyurdusa, indi də elə toxunur. O naxışlar yaşayır. O da muğamdı, qızım. inan muğamdı:

*Anam kələğaylı bir muğamıydı,*
*Muğam da doğmaca öz anamıydı. . .*

Yəni biz ordan gəlmişik, ora da qayıdırıq. Biz keçmişdən güc almasaq gələcəyi qura bilmərik:

*Arxamdadı dağım-daşım,*
*İstərəm qaynayım , daşım.*
*Yanımda bir yol yoldaşım,*
*Seyid Həmzə Nigar qalsa.*

*Yaş ötüb, sinədəftərəm,*
*keçmə, keçilməz çəpərəm.*
*Şair, dilindən öpərəm,*
*yazdığım misralar qalsa.*

**Söhbətləşdi:**
**Güllü Eldar Tomarlı**